ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

STIPENDIUM HUNGARICUM

HTP HÖKUMƏTLƏRARASI TƏQAÜD PROQRAMLARI

# Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində Macarıstanda təhsil - 2026/2027-ci tədris ili



## İndi müraciət et: www.portal.edu.az

# Ümumi məlumat

Təqaüd proqramı “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında 2024-2026-cı illər üçün “Stipendium Hungaricum” proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na əsasən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) tərəfindən həyata keçirilir.

Proqram çərçivəsində Macarıstan tərəfindən hər il 200 nəfərədək Azərbaycan vətəndaşı üçün aşağıdakı ixtisas proqramları əsasında təqaüd ayrılacağı nəzərdə tutulmuşdur:

- tam bakalavriat və magistratura təhsil proqramları üzrə:
  - kənd təsərrüfatı, su idarəetməsi - 10 təqaüd;
  - təbiət elmləri, davamlı inkişaf - 20 təqaüd;
  - turizm - 10 təqaüd;
  - səhiyyə elmləri – 5 təqaüd;
  - beynəlxalq münasibətlər – 5 yer;
  - mühəndislik, informasiya texnologiyaları, texnologiyalar - 75 təqaüd;
  - iqtisadiyyat, biznes və idarəetmə elmləri - 50 təqaüd.
- doktorantura təhsili üzrə:
  - istənilən maraq dairəsi üzrə - 25 təqaüd.

İxtisaslara dair ətraflı məlumatla keçiddən tanış ola bilərsiniz.

**Qeyd:** Macarıstan tərəfinin elektron ərizə sistemində müqavilədə göstərilən ixtisas istiqamətlərinə uyğun olmayan ixtisaslar (hüquq, memarlıq və s.) olduğunu nəzərə alaraq bildiririk ki, müsahibə mərhələsində iştirak hüququnu ancaq Anlaşma Memorandumunda qeyd edilən (yuxarıda verilmiş) ixtisas istiqamətləri üzrə müraciət edən iddiaçılar əldə edə biləcəklər.

## Maliyyələşmə

Tələbələr üçün nəzərdə tutulmuş təqaüd aşağıdakı xərcləri əhatə edir:

**Macarıstan tərəfindən:**

- ödənişsiz təhsil;
- universitet yataqxanasında yaşayış (Əgər tələbə yataqxanada qalmırsa, bütün təhsil müddəti üçün əlavə aylıq 40.000 forint yaşayış xərclərinə dəstək üçün təqaüd məbləğinə əlavə olunur);
- tibbi sığorta;
- aylıq təqaüd.

Mövcud qanunvericiliyə əsasən, aylıq təqaüd Macarıstan tərəfindən ümumi olaraq aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- bakalavriat və magistratura proqramları üçün: aylıq 43,700 Macarıstan forinti;
- doktorantura proqramları üçün: təlim və tədqiqat dövründə aylıq 140.000, dissertasiya dövründə isə aylıq 180.000 Macarıstan forinti.

**Diqqət! Beynəlxalq nəqliyyat xərcləri tələbələrin özləri tərəfindən qarşılanır.**

## Müraciət forması və tarixlər

1. Təqaüd proqramına hər iki tərəfin elektron ərizə sistemi üzrə son müraciət tarixi **22.12.2025/23:59 (GMT+4, Bakı vaxtı ilə)** müəyyən edilib.

   ***Qeyd:*** *Baxmayaraq ki, Macarıstan tərəfinin elektron ərizə sistemində son müraciət tarixi 15.01.2026-cı il tarixi müəyyən edilib,*

*lakin müsahibələrinin təşkili və digər məsələlərin tənzimlənməsi məqsədilə yalnız **22.12.2025-ci il tarixinədək hər iki tərəfin elektron ərizəsini** təsdiq etmiş şəxslərin müraciətlərinin dəyərləndirilməsi aparılacaqdır.*

İlk öncə, Macarıstan elektron ərizə sistemi doldurulub təsdiq edilməlidir: **Apply online! - Stipendium Hungaricum**

Növbəti addım olaraq isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə müraciət edilməlidir: **https://portal.edu.az/**

2. Hər iki elektron qeydiyyatı düzgün şəkildə tamamlamış, bu elanın və müraciət etdikləri ali təhsil müəssisələrinin ümumi tələblərinə cavab verən namizədlər onlarla fərdi şəkildə keçiriləcək onlayn müsahibəyə dəvət olunacaqlar.

3. Müsahibənin dəqiq vaxtı və yeri barədə məlumat namizədə elektron poçt/şəxsi kabinet və SMS vasitəsilə bildiriləcəkdir.

4. Müsahibə üçün təyin olunmuş vaxta 15 dəqiqədən çox gecikən şəxslər müsahibəyə buraxılmayacaqdır.

5. Hər bir namizədlə keçirilmiş müsahibə 10-15 dəqiqə ərzində davam edir, müsahibədə audio-video çəkiliş aparılır.

6. Seçim nəticələrinə dair apellyasiya verilməsi nəzərdə tutulmur.

7. EATDA tərəfindən namizədliyi təsdiq olunmuş şəxslərin adları Macarıstan tərəfinə (Tempus Public Foundation) təqdim ediləcəkdir.

8. EATDA tərəfindən təklif olunan və təsdiq üçün Macarıstan tərəfinə göndərilmiş namizədlərin sənədləri müraciətlərində qeyd etdikləri ali təhsil müəssisələrinə seçim sıralamasına uyğun olaraq göndəriləcəkdir.

**Ali təhsil müəssisələrinin seçim qaydaları bir-birindən fərqlənir və qəbul daxili qaydalarla tənzimlənir. Göstərilmiş universitetlərdən heç birinə qəbul ola bilməyən namizədlərin təqaüd hesabına təhsil alması mümkün olmayacaqdır.*

9. Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı Macarıstan tərəfinin (TPF) yekun qərarının 2026-cı ilin iyun-iyul ayları ərzində təqdim olunması gözlənilir.

***Qeyd:*** *2026/27-ci tədris ili üzrə təqaüd qazanmış şəxslər fors- major (xüsusi və gözlənilməz) hallar istisna olmaqla, EATDA və Tempus Fondunun razılığı olmadan, təhsillərini növbəti semestrə və ya akademik ilə təxirə sala bilməzlər.*

## Müsahibə mərhələsində iştirak üçün əsas şərtlər və tələb olunan sənədlər

Namizədlər yalnız aşağıdakı tələblərə cavab verdikləri təqdirdə fərdi müsahibə mərhələsində iştirak hüququ əldə edəcəklər:

1. Bakalavriatdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisasın xaricdə oxumaq üçün seçdiyi ixtisaslara uyğun olması tövsiyə olunur (ixtisasların uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 dekabr 2024-cü il 503 nömrəli Qərarı ilə təsdiq edilmiş ixtisasların təsnifatına əsasən müəyyən olunur);

2. İddiaçıların seçdiyi hər iki ixtisasın eyni ixtisas istiqaməti üzrə olması tövsiyə olunur.

3. Bakalavriat təhsil səviyyəsi üzrə təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinin tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 450, digər sahələr üzrə ən azı 510 bal toplamalıdırlar.

4. 2025/26-cı tədris ili və ya əvvəlki illərdə ümumtəhsil müəssisələrindən məzun olacaq və ya artıq məzun olmuş, Dövlət İmtahan Mərkəzinin (DİM) imtahanlarında iştirak etməyən iddiaçıların akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT, qızıl/gümüş/bürünc medal sahibi və s.) əsas götürüləcəkdir (həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 75%- indən (məsələn: SAT üzrə ən azı 1200 bal) az olmamaqla).

5. Bakalavriat təhsil səviyyəsi üzrə müraciət edən iddiaçıların (əvvəlki illərin məzunları) attestat (və ya qiymətlər göstərilməklə hazırda orta məktəbin son ilində təhsil aldığına dair arayış) və ya orta ixtisas diplomu üzrə cari müvəffəqiyyət dərəcəsinin orta balı 5 ballıq sistem üzrə 4 baldan aşağı olmamalıdır.

6. Hazırda bakalavriat səviyyəsində Macarıstanda şəxsi vəsaiti hesabına təhsil alan və DİM/SAT göstəricilərinə sahib olmayan namizədlərin ümumi orta müvəffəqiyyət göstəriciləri (ÜOMG-si 100 ballıq sistem üzrə 75-dən az olmamalıdır) əsas götürüləcəkdir.

7. Hazırda Macarıstanda bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə öz vəsaiti hesabına təhsil alan və eyni təhsil səviyyəsi üzrə təqaüd proqramına müraciət edən tələbələr **yalnız təhsil aldıqları ali təhsil müəssisəsi tərəfindən tövsiyə olunduqları təqdirdə** sözügedən proqrama müraciət edə bilərlər.

8. Bakalavriat təhsil səviyyəsinə müraciət edən iddiaçılar Beynəlxalq təhsil proqramları üzrə (IB, A level, AP) təhsil alıblarsa və aşağıda müəyyən olunmuş keçid ballarının minimum və maksimum hədləri aralığında göstəricilərini təsdiq edən arayışın surətini təqdim edə bilirlərsə, **bu halda bu namizədlərdən DİM qəbul imtahanın nəticəsi və SAT balı tələb olunmur:**

- Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme) – 25-35;
- Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education) – C və ya B (müvafiq üç imtahan fənni üzrə);
- Yüksək yerləşdirmə (Advanced Placement) – 3 və ya 4 (müvafiq üç imtahan fənni üzrə).

9. Azərbaycanın ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan şəxslər təhsilinin 50%-dən çoxunu tamamlamamış olmalıdır.

10. Magistratura və ya doktorantura təhsil səviyyələrinə müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə ÜOMG 100 ballıq sistem üzrə 75 baldan aşağı olmamalıdır. Hazırda təhsil aldığı eyni səviyyə üzrə müraciət edən iddiaçıların cari ÜOMG də 100 ballıq sistem üzrə 75 baldan aşağı olmamalıdır.

**11.** Namizədin seçilmiş proqrama uyğun dil biliyi səviyyəsi sertifikatı bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə **IELTS sertifikat balı minimum 7 və ya digər beynəlxalq dil sertifikatlarının (TOEFL, Duolingo və.s)** bu göstəriciyə ekvivalentini təşkil etməlidir.

***Qeyd:*** Əvvəlki təhsil səviyyəsi üzrə HTP çərçivəsində Macarıstanda təhsil almış şəxslər növbəti təhsil səviyyəsi üçün müraciət edərsə, universitet(lər)in razılığına uyğun olaraq (bununla bağlı universitet(lər)in tərəfindən təsdiqedici imeyl təqdim edilməlidir), onlardan dil sertifikatı **tələb edilmir.**

**12.** Macarıstan tərəfinin elektron ərizə sistemində müqavilədə göstərilən ixtisas istiqamətlərinə uyğun olmayan ixtisaslar olduğunu nəzərə alaraq, yalnız Anlaşma Memorandumunda qeyd edilən ixtisas istiqamətləri üzrə müraciət edən iddiaçılar müsahibə mərhələsində iştirak hüququ qazana biləcəklər.

**13.** "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində təhsil almış, lakin Elm və Təhsil Nazirliyi ilə imzaladığı müqaviləyə əsasən 5 il ərzində ölkədə işləmək öhdəliyini yerinə yetirməmiş məzunların sənədləri qəbul edilməyəcəkdir.

**14.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən (...dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir), Azərbaycan ali təhsil müəssisələrində yaxud xaricdə dövlət hesabına ("2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil

müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" və hökumətlərarası müqavilələr yolu ilə) təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər.

## Tələb olunan sənədlər

1. Avropa İttifaqı CV nümunəsində (Europass format) doldurulmuş CV (namizədin şəkli əlavə olunmalı, təhsil almaq üçün müraciət etdiyi dildə və ya ingilis dilində hazırlanmalı).

2. Motivasiya məktubu - təhsil alacağınız ixtisas və Macarıstanda təhsillə bağlı məqsəd və gözləntiləriniz barədə minimum 350, maksimum 500 sözdən ibarət qısa xülasə (Times New Roman 12 şrifti ilə ingilis və ya macar dilində yazılmış).

3. Xarici dil sertifikatı (IELTS; TOEFL; Duolingo*).

   **Müraciət edilən ali təhsil müəssisəsi qəbul etdiyi təqdirdə.*

4. Təhsil sənədləri (ingilis və ya macar dilində notarial qaydada tərcümə və təsdiq olunmuş):
   a. bakalavriat təhsil səviyyəsi üçün: orta təhsili bitirmə haqqında sənəd (attestat və ya hazırda təhsil aldığına dair arayış);
   b. magistratura təhsil səviyyəsi üçün: bakalavr diplomu və diplom əlavəsi (transkript);
   c. doktorantura təhsil səviyyəsi üçün: bakalavriat və magistratura diplomu və diplom əlavələri.

**QEYD**: Bakalavriat təhsil səviyyəsi üzrə I-II, magistratura təhsil

səviyyəsi üzrə isə I təhsil illərində təhsil alan şəxslər təhsil aldıqlarına dair müvafiq arayış və ən son tarixli transkript təqdim etməlidirlər.

**QEYD**: Sadalanmış ali təhsil sənədlərindən hər hansısa birini (bakalavr və ya magistr diplomu) namizəd xarici təhsil müəssisəsinin məzunu olaraq almışdırsa, həmin sənədin Azərbaycan Respublikası ərazisində kvalifikasiyaların tanınması prosesindən keçdiyinə dair sənəd təqdim etməlidir.

**5.** Ümumvətəndaş pasportunun surəti.

**6.** Hərbi bilet və ya hərbi xidmətdən möhlət haqqında sənəd (ASAN xidmətdən alınan arayış).

***Qeyd:*** *Hazırda Azərbaycanda bakalavriat və magistratura təhsil səviyyələrinin sonuncu kursunda təhsil alan tələbələrə şamil edilmir.*

**7.** İki ədəd tövsiyə məktubu (yeni tarixli, imzalı və möhürlü olması mütləqdir).

**Doktorantura proqramı üçün müraciət edən namizədlər aşağıdakı sənədləri əlavə olaraq təqdim etməlidirlər:**

**8.** Namizədin tədqiqat işinə dair Azərbaycan dilində məlumat (tədqiqat planı: qısa xülasə, metodologiya, tədqiqat sualı, biblioqrafiya) – 2000 sözdən az olmayan həcmdə (ədəbiyyat siyahısı nəzərə alınmadan).

**9.** Namizədin xarici ölkələrin təsir gücünə (“impakt faktor”) malik olan, istinad indeksli elmi nəşrlərində dərc olunmuş elmi məqalələri, yaxud

həmin məqalələrə elektron keçidlərin (linklərin) siyahısı (əgər varsa).

10. Elmi rəhbərdən müvafiq arayış – (Namizədin qəbul olunduğu ali təhsil müəssisəsində müvafiq “supervisor”dən ona elmi rəhbərlik edəcəyinə dair sənəd əldə olunmalı və aidiyyəti üzrə elektron sistemlərə yükləməlidir).

**İstisna hallarda aşağıda qeyd olunmuş tələb olunan sənədlərin sonradan göndərilməsi mümkündür:**

- tam orta təhsili bitirmə haqqında sənəd: tam orta təhsil səviyyəsində sonuncu yarımilliyində təhsil alanlar üçün;
- bakalavriat diplomu: bakalavriat təhsil səviyyəsində sonuncu semestrdə təhsil alanlar üçün;
- magistratura diplomu: magistratura təhsil səviyyəsində sonuncu semestrdə təhsil alanlar üçün;

Qeyd olunan təhsil sənədləri **1 avqust 2026-cı** il tarixindən gec olmayaraq Macarıstan tərəfinə təqdim olunmalıdır.

**Qeyd 1**: Müraciət edən namizədlərin yaşı **18 yaşdan** (31 avqust 2008-ci ildən əvvəl doğulmuş olmalıdır) aşağı olmamalıdır (Mövcud Memoranduma əsasən, müvafiq tədris ilində 1 sentyabr tarixinə qədər 18 yaşı tamam olmayan Azərbaycan Respublikası vətəndaşları təqaüd proqramına müraciət edə bilməzlər).

**Qeyd 2**: Macarıstan tərəfinin təqdim etdiyi sağlamlıq haqqında arayış forması yalnız təqaüdlə təhsil almaq hüququ əldə edən şəxslər üçün məcburidir. Təqaüdə layiq görülən şəxslər sağlamlıq haqqında arayışı müvafiq qaydada doldurduqdan sonra özü ilə Macarıstana

aparmalı və orada məcburi tibbi müayinələr zamanı təqdim edilməlidir. **Yalnız 1 noyabr 2025-ci ildən sonra alınan tibbi arayışlar qəbul ediləcəkdir**.

**Qeyd 3**: Namizədlər, bir akademik ildə ilkin seçimi EATDA tərəfindən aparılan yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər. Portal.edu.az elektron ərizə sistemi iddiaçılara yalnız bir təqaüd proqramına müraciət etməyə icazə verir.

**Qeyd 4**: Poçt və ya elektron poçt vasitəsilə sənədlərini EATDA-ya göndərən şəxslərin sənədləri nəzərə alınmayacaqdır. Seçim prosesində sənədlərini hər iki: Macarıstan təqaüd proqramının və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sistemləri vasitəsilə təqdim etmiş şəxslərin müraciətlərinə baxılacaqdır.

**Qeyd 5:** Müraciətinizdəki təqdim etdiyiniz sənədlərin uyğunsuzluqlarının aradan qaldırılması üçün müvafiq yoxlama siyahısından (Checklist) istifadə etməyiniz tövsiyə olunur.

## EATDA ilə əlaqə

Təqaüd proqramı ilə bağlı suallarınızı **htpinfo@eatda.edu.az** elektron poçtuna ünvanlaya bilərsiniz.

Mütəmadi verilən suallar barədə **keçiddən** tanış olmağınız xahiş olunur.